# B İ L D İ R İ Ş

Hörmətli Səhmdar!

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-1-ci maddəsinə müvafiq olaraq "SƏBA" ASC-nin Direktorlar Şurasının qərarına əsasən **01 fevral 2021-ci il tarixdə saat 15:00-da Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti 1** ünvanında Cəmiyyətin inzibati binasında "SƏBA" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının Növbədənkənar Ümumi Yığıncağı keçiriləcək. Ümumi Yığıncağın gündəliyinə aşağıdakı məsələlərin müzakirəsi daxil edilmişdir:

1. ASC "Xalq" Bankı (bundan sonra "Bank") ilə Cəmiyyət arasında bağlanmış 24.10.2019-cu il tarixli 100400975770319 saylı Kredit müqaviləsi üzrə öhdəliklərin tam şəkildə bağlanılması məqsədilə Bankdan illik 5% ödənilməklə, 36 ay müddətinə kreditin götürülməsi və kreditin təminatı qismində Cəmiyyətə məxsus Şabran şəhəri, Məmməd Əmin Rəsulzadə, küçəsi 35 ünvanda yerləşən əmlak kompleksi kimi müəssisənin Bankın xeyrinə ipotekaya qoyulması;
2. Bank ilə Cəmiyyət arasında bağlanmış 15.08.2017-ci il tarixli 100400967532917 saylı Kredit müqaviləsi üzrə kreditləşmə müddətinin 15.08.2023-cü il tarixədək uzadılması və ödəniş şərtlərini dəyişdirməklə (**15.01.2022 ancağ % ödənilsin. Qalan müddətdə annuitet ödəniləcək, rüblük**) restrukturizasiya edilməsi;
3. Bankdan dövriyyə məqsədilə, illik 5% ödənilməklə, 36 ay müddətinə kreditin cəlb edilməsi və kreditin təminatı qismində Cəmiyyətə məxsus Şabran şəhəri, Məmməd Əmin Rəsulzadə, küçəsi 35 ünvanda yerləşən əmlak kompleksi kimi müəssisənin Bankın xeyrinə ipotekaya qoyulması.
4. Bankdan sənədli əməliyyatların maliyyələşdirilməsi məqsədilə illik 4% ödənilməklə, 36 ay müddətinə kreditin cəlb edilməsi və kreditin təminatı qismində Cəmiyyətə məxsus Şabran şəhəri, Məmməd Əmin Rəsulzadə, küçəsi 35 ünvanda yerləşən əmlak kompleksi kimi müəssisənin Bankın xeyrinə ipotekaya qoyulması.
5. Nizamnamənin yeni redaksiyasının təsdiq olunması;
6. Digər məsələlər.

Cəmiyyətin bütün səhmdarlarına izah olunur ki, səhmdarlar Ümumi Yığıncağın gündəliyin layihəsinə dair təkliflər vermək və gündəliyə daxil edilmiş bütün məsələlər üzrə müvafiq sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq hüququna malikdirlər.

*Gündəliklə əlaqədar münasibət bildirilməsi üçün əlaqə telefonu:* ***(+994 12) 448-16-01;***

*Ümumi Yığıncağın keçiriləcəyi ünvan:* ***Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 1***

**Hörmətlə,**

**İdarə Heyətinin Sədri** **Fuad Ələkpərov**